# Salyanda Əli bəy Hüseynzadənin anım günü qeyd edilib

**İctimai fikrin görkəmli nümayəndəsi, alim, yazıçı, publisist, rəssam, filosof Əli bəy Hüseynzadənin Salyanda anım günü keçirilib. Anım mərasimində böyük mütəfəkkirin abidəsi ziyarət edilib, önünə gül-çiçək dəstələri düzülüb.**



Azərbaycanın ictimai-siyasi fikir tarixində silinməz iz qoymuş Əli bəy Hüseynzadə 85 il əvvəl - 1940-cı il martın 17-də 76 yaşında Türkiyənin ozamankı paytaxtı İstanbulda dünyasını dəyişmişdir. Salyanda dünyaya göz açsa da, tale ona Tiflisdə, ana babası, Qafqaz Şeyxülislamı Şeyx Əhmədin himayəsində böyümək, pərvəriş tapmağı qismət etmişdir. Babası ilə birlikdə öz çağının ən görkəmli fikir adamı M.F.Axundzadənin söhbətlərində iştirak etməsi Əli bəyin ziyalı, alim, şair, yazıçı, publisist kimi formalaşmasında mühüm rol oynamışdır.

Ə.Hüseynzadə dövrünə görə mükəmməl təhsil görmüş, Tiflisdə ruhani təhsili almaqla yanaşı, gimnaziya, Peterburq və İstanbulda universitet bitirmiş, poliqlot şəxsiyyət olmuşdur. Bayrağımızın ideya müəllifi də Əli bəydir. Türkləşmək, müasirləşmək və islami dəyərlərə sarılmaq ideologiyasının əsasını qoyan Ə.Hüseynzadə həm də türk xalqlarının birliyi fikrinin yaradıcısıdır. O, böyük turançı ictimai fikir tariximizdə Azərbaycanın yerini, mövqeyini, haradan gəlib haraya getdiyini ilk görənlərdən biri, bəlkə də birincisi idi. İdeoloji fikir çarpışmasında öz sözünü demiş, öz mövqeyi olan, xalqını canından çox sevən Əli bəyin fikirlərində nə qədər haqlı olduğunu zaman göstərdi.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 19 mart (№ 60).- S.14.